## 15 iyun - Milli Qurtuluş Günüdür


# ŞİRVAN

ŞAMAXI RAYON İCRA HAKİMİYYƏTİNİN ORQANI

№ 8 (6573) Qəzet 1932-ci ildən çıxır İyun 2019-cu il


## Şamaxıda 15 iyun - Milli Qurtuluş Günü təntənəli surətdə qeyd olunub



☞ səh. 2

## Nəsiminin 650 illik yubileyinə həsr edilən elmi sessiya keçirilib




☞ səh. 2

## Şamaxıda “e-qaimə-faktura” və “e-vergi hesab-faktura”larının tətbiqi məsələləri ilə bağlı dəyirmi masa keçirilir



☞ səh. 4

## 14 iyun tarixində Şamaxı rayonunun bütün ümumtəhsil məktəblərində son zəng tədbirləri keçirilib



☞ səh. 6

## Avstriyalı tanınmış bərpaçı memar Gülüstan qalasının 3D qrafik modelini hazırlayır



☞ səh. 7

## Şamaxıda Beynəlxalq Yoqa Günü qeyd edilib




☞ səh. 5

# Şamaxıda 15 iyun - Milli Qurtuluş Günü təntənəli surətdə qeyd olunub

**Tədbir iştirakçıları Ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə tər çiçəklər düzüblər.**



Heydər Əliyev Mərkəzində keçirilən yığıncaqda çıxış edən rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov diqqəti 26 il bundan əvvəl Ulu öndər Heydər Əliyevin xalqın çağırışı ilə respublikamıza rəhbərliyə qayıdışına cəlb edərək vurğulayıb ki, məhz o vaxt Azərbaycanın müqəddəratı tənəzzüldən tərəqqiyə doğru dəyişib. Ulu öndərimiz siyasi müdrikliyi, zəngin dövlətçilik təcrübəsi, qətiyyəti və yorulmaz fəaliyyəti ilə o zaman respublikada yaşanan xaos və anarxiya, vətəndaş qarşıdurması, getdikcə dərinləşən sosial-iqtisadi böhran şəraitində dövlət müstəqilliyimizin bütün təhlükələrdən xilas olmasını və ildən-ilə möhkəmlənməsini, sarsılmazlığını təmin edib. Xalqımız Ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşərək, milli qurtuluşun açdığı yolla parlaq gələcəyinə doğru inamla irəliləyib. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan qurtuluşla başlayan zəfər tarixinə yeni-yeni parlaq səhifələr yazmaqda davam edir.

Tədbirdə rayon ağsaqqallar şurasının sədri Mayıl Alcanov, YAP rayon təşkilatının sədri Bəxtiyar Abbasov, Mədrəsə qəsəbə tam orta məktəbin direktoru Rahib Qasımov, YAP Gənclər Birliyinin sədri və digər çıxış edənlər Azərbaycan tarixində xüsusi önəm kəsb edən Milli Qurtuluş Gününün xalqımızın taleyində dönüş günü olduğunu vurğulayıblar. Məhz o vaxtdan başlayaraq ölkədə sabitlik bərqərar olunub, bütün sahələrdə uğurlu islahatlar həyata keçirilib, iqtisadi tənəzzülün qarşısı alınıb.

Çıxışlarda qeyd olunub ki, müasir Azərbaycanın bugünkü möhtəşəm uğurlarının bünövrəsində Ulu öndərin işləyib hazırladığı milli dövlət quruculuğu konsepsiyası dayanır.

# Nəsiminin 650 illik yubileyinə həsr edilən elmi sessiya keçirilib



**Şamaxı Rayon İcra Hakimiyyəti və AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilən elmi sessiya keçirilib.**

Tədbir iştirakçıları əvvəlcə Şamaxıda Ümummilli lider Heydər Əliyevin, habelə dahi şair İmadəddin Nəsiminin şərəfinə ucaldılan abidələri ziyarət edib, önünə gül dəstələri düzərək öz ehtiramlarını bildiriblər.

Şamaxı İncəsənət Təhsili Mərkəzində davam edən tədbiri rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov açaraq Azərbaycanda ədəbiyyatın inkişafı ilə bağlı görülən işlərdən, bu sahəyə göstərilən diqqət və qayğıdan danışıb. Bildirilib ki, bu istiqamətdə ulu öndər Heydər Əliyevin apardığı siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının 2019-cu ili ölkəmizdə “Nəsimi ili” elan etməsi ədəbiyyatımıza göstərilən böyük qayğının bariz nümunəsidir.

Tədbirdə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli dövlətimizin başçısının 2019-cu ili “Nəsimi ili” elan etməsi, cari ildə akademik Həmid Araslının 110, Cəlil Məmmədquluzadənin 150, İsmayıl Şıxlının 100 illik yubileylərinin qeyd olunması haqqında sərəncamlarının dövlətin ədəbiyyata, ədəbiyyat nümayəndələrinə qayğısının təzahürü olduğunu vurğulayıb. İsa Həbibbəyli ölkə başçısının müvafiq sərəncamlarının icrasına uyğun olaraq AMEA-nın Humanitar Elmlər Bölməsinə daxil olan elmi müəssisə və təşkilatlar tərəfindən silsilə konfransların, elmi sessiyaların keçirildiyini, həmçinin mətbuatda İmadəddin Nəsimi yaradıcılığının təbliğ edildiyini, eləcə də azərbaycanlı alimlərin Serbiya, Qazaxıstan, Qırğızıstan və digər ölkələrdə şairə həsr olunan tədbirlərdə iştirak etdiklərini söyləyib. O, akademiyada Nəsiminin 650 illik yubileyinə həsr edilən yekun tədbirin isə cari ilin sonlarında keçiriləcəyini diqqətə çatdırıb. Vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə İmadəddin Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirlər siyahısına daxil edilib və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunub.

Mütəfəkkir şair Nəsimi yaradıcılığının Azərbaycan dilinin və ədəbiyyatının inkişafında mühüm yer tutduğunu deyən AMEA-nın vitse-prezidenti bu gün ədibin əsərlərinin daha dərindən tədqiq edilməsinin zəruriliyini vurğulayıb. Alim Ədəbiyyat İnstitutu tərəfindən “Böyük Azərbaycan şairi İmadəddin Nəsimi” monoqrafiyasının hazırlandığını və il ərzində nəşr olunacağını qeyd edib.

Tədbirdə professor Qəzənfər Paşayev “Ədəbiyyat və incəsənətdə Nəsiminin bədii obrazı”, Ədəbiyyat İnstitutunun orta əsrlər Azərbaycan şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, dosent Fəridə Əzizova “İmadəddin Nəsiminin soykökü və şəcərəsi”, filologiya üzrə elmlər doktoru Rəhim Əliyev “Nəsimi şeirinin sənətkarlığı”, filologiya üzrə fəlsəfə doktoru Zəkulla Bayramlı “Azərbaycan ədəbiyyatında Nəsimi ənənələri”, filologiya üzrə fəlsəfə doktoru Qədim Qubadov “Nəsimi və folklor” mövzularında məruzə ilə çıxış ediblər.

**“Şirvan”**

# Şamaxıdakı "N" saylı hərbi hissədə Azərbaycan Ordusunun yaranmasının 101 illiyinə həsr olunmuş bayram tədbiri keçirilib

**25 iyun 2019-cu il tarixdə Şamaxıdakı "N" saylı hərbi hissədə Azərbaycan Ordusunun yaranmasının 101 illiyi münasibətilə bayram tədbiri keçirilib.**



Tədbirdə rayon rəhbəri, ictimaiyyət nümayəndələri, gənclər, ziyalılar, mədəniyyət və incəsənət ustaları iştirak ediblər.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov Azərbaycan Ordusunun yaradılması, respublikamızda ordu quruculuğu sahəsində görülən işlərdən danışıb, Milli Ordumuzun müstəqil Azərbaycan dövlətinin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və dövlətimizin ərazi bütövlüyünün tam təminatçısı olduğunu diqqətə çatdırıb. Bildirib ki, ölkəmizdə Ulu Öndər Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu sahəsində apardıqları islahatlar nəticəsində Qafqazda ən güclü müdafiə potensialı olan böyük hərbi bazaya malik bir ordu formalaşıb.

Çıxışlardan sonra tədbir rayonun incəsənət ustalarının iştirakı ilə təşkil olunmuş konsert proqramı ilə davam edib.

# Şamaxıda keçirilən tədbirdə yanğın təhlükəsizliyi məsələləri barədə geniş müzakirələr aparılıb



İyunun 13-də Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin Şimal-Qərb regional Dövlət Yanğın Nəzarəti İdarəsi Şamaxıda dənli və texniki bitkilərin yığılması, daşınması, saxlanması və emalı dövründə yanğın hadisələrinin qarşısının alınması, eləcə də meşələrin yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə tədbir keçirib. Tədbirdə rayon icra hakimiyyətinin, polis idarəsinin, eləcə də müvafiq qurumların nümayəndələri, fermerlər iştirak ediblər.

Tədbirdə taxıl yığımına və ot tədarükünə hazırlıq, dənli bitkilərin yetişmə və məhsul yığımı dövründə yanğın təhlükəsizliyi ilə əlaqədar qarşıda duran vəzifələr ətraflı müzakirə olunub. Habelə, meşə və meşə zolaqlarının yanğından mühafizəsi məsələləri ilə bağlı da geniş müzakirələr aparılıb.

Tədbiri rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov açaraq yanğın təhlükəsizliyi ilə bağlı görülən işlərdən, həyata keçirilən tədbirlərdən danışıb, bu sahədə Dövlət Yanğın Nəzarəti Xidməti ilə birgə fəaliyyətin səmərəli olduğunu bildirib. Vurğulanıb ki, qaz, elektrik təsərrüfatının mövcud olduğu sahələrdə texniki təhlükəsizlik və yanğın təhlükəsizliyi qaydalarına əməl olunması, həmçinin iş günü və dərslər qurtardıqdan sonra növbətçi işıqlandırma qurğularından başqa, bütün elektrik qurğu və cihazlarının dövriyyədən ayrılması diqqət mərkəzində saxlanılmalı, mövcud yanğınsöndürmə vasitələri daim istifadə üçün yararlı vəziyyətdə olmalıdır.

Tədbirdə Şimal-Qərb regional Dövlət Yanğın Nəzarəti İdarəsinin DYNŞ-nin rəisi, daxili xidmət mayoru Nurlan Şahmurov, rayon Fövqəladə Hallar Komissiyasının sədri Qasım Qasımov, rayon polis şöbəsinin rəisi Şahin Mirzəyev, Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Orxan Vəliyev, Mirikənd bələdiyyəsinin sədri Zöhrab Əmrahov və başqaları çıxışlarında son illər yanğın təhlükəsizliyi ilə bağlı aparılan tədbirlərdən, elektrik və qaz təsərrüfatından istifadə zamanı qüvvədə olan normativ sənədlərin tələblərinə riayət olunmasından, yanğınların söndürülməsində mühüm rol oynayan su mənbələrinin vəziyyətindən, ilkin yanğınsöndürən vasitələrlə təchizatdan, avtomatik yanğınxəbərverici və yanğınsöndürmə qurğularının əhəmiyyətindən söz açıblar. Habelə, iştirakçılara şəxsi heyətin və xüsusi kontingentin fövqəladə hallar zamanı davranış qaydaları, həyata keçirilməsi zəruri olan təhlükəsizlik tədbirləri barədə məlumat verilib.

Toplantıda ərazilərin daim təmiz vəziyyətdə saxlanılması, normativ sənədlərə uyğun ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməsi, yanğın zamanı insanların köçürülməsi (təxliyə) planlarına aid yaddaş kitabçalarının tərtib olunaraq müvafiq yerlərdən asılması, yanğına qarşı su təchizatına (hovuzlar, kəmərlər, çənlər) qayğı ilə yanaşılmasının vacibliyi məsələləri barədə də geniş danışılıb.

**"Şirvan"**

# Şamaxıda "e-qaimə-faktura" və "e-vergi hesab-faktura"larının tətbiqi məsələləri ilə bağlı dəyirmi masa keçirilir

**İyunun 27-də Vergilər Nazirliyinin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzində "e-qaimə-faktura" və "e-vergi hesab-faktura"larının tətbiqi məsələləri, bu zaman ortaya çıxan problemlər və onların həlli yolları ilə bağlı dəyirmi masa keçirilir.**



Tədbirdə çıxış edən nazirliyin İqtisadi təhlil departamentinin baş direktoru Natiq Şirinov "e-qaimə-faktura"nın tətbiqi sahəsində mövcud vəziyyət barədə məlumat verib, vergiödəyicilərinin bu sahədə rastlaşdıqları problemlərin həlli istiqamətində görülən işlər barədə danışıb.

Bildirib ki, "e-vergi hesab-fakturası" anlayışının Vergi Məcəlləsindən götürülməsi və vahid "e-qaimə-faktura"nın tətbiqi ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliklər edilməsi barədə təkliflər hazırlanır. O, həmçinin vergi qanunvericiliyinə dəyişikliklər çərçivəsində yeni bir layihə kimi malların elektron alış aktının tətbiqinin planlaşdırıldığını da diqqətə çatdırıb.

Tədbirdə iqtisadçı ekspertlər, müxtəlif şirkətlərin nümayəndələri təcrübə zamanı ortaya çıxan problemlər və çətinliklər barədə fikirlərini bölüşüb, bu məsələlərin həlli ilə bağlı təkliflərlə çıxış ediblər.

Təkliflərə münasibət bildirən N.Şirinov qeyd edib ki, ekspert cəmiyyətinin və sahibkarlar təşkilatlarının təqdim etdiyi təkliflər əsasında vergi inzibatçılığında bir sıra dəyişikliklərin aparılması qərara alınıb. Artıq malları təqdim edən tərəf "e-qaimə-faktura"nı ləğv etmək istədikdə, alan tərəfə 5 iş günü ərzində münasibət bildirmək imkanı əldə edəcək.

"E-qaimə-faktura"da malların "bar kodları"nı əks etdirən sütun əlavə ediləcək. "E-qaimə" tərtib edilən zaman malgöndərənin (satıcı) bank rekvizitlərinə dair məlumatları seçmək imkanı olacaq. Agentin həyata keçirdiyi əməliyyatlar "e-qaimə-faktura"da nəzərə alınacaq. "E-qaimə" bölməsində "Reyestr" üzrə axtarış zamanı bir günlük limit artırılacaq, həmçinin göndərilən paketlərdəki qaimə sayı çoxaldılacaq. Paket səhv göndərilibsə, paketin özünü ləğvetmə imkanı olacaq.

Dəyirmi masa sabah da öz işini davam etdirəcək.

Tədbirdə Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri, iqtisadçı ekspertlər, sahibkarların ictimai birlikləri, "böyük dördlük" nümayəndələri, sahibkarlar və onların mühasibat uçotu məsələləri ilə məşğul olan əməkdaşları və mühasiblər iştirak edirlər.

# ŞAMAXI GƏNCLƏR PAYTAXTI - 2019



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan gəncliyi 2017-2021-ci illər" Dövlət Proqramının icrası çərçivəsində hər il respublikada onlayn sistemi üzrə "Gənclər Paytaxtı" müsabiqəsi keçirilir. Bu il Şamaxı rayonu respublikanın 22 şəhər və rayonları arasında 30,1 faiz səs çoxluğu ilə qalib gələrək 2019-cu ilin "Gənclər Paytaxtı" seçilmişdir. Bununla əlaqədar olaraq, rayonda görüləcək işlərlə bağlı Şamaxı Rayon İcra Hakimiyyətinin Başçısı tərəfindən təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq rayonda müxtəlif tədbirlər həyata keçirilir. Belə ki, Şamaxının "Gənclər Paytaxtı-2019" seçilməsi ilə bağlı rayonun ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri, ümumtəhsil tam orta məktəblərinin şagirdləri arasında müxtəlif intellektual oyunlar, rəsm və foto müsabiqələri, konsert proqramları, idman yarışları və digər tədbirlər keçirilmişdir. Həmçinin bununla bağlı rayonun müxtəlif yerlərində 200 nəfərdən artıq gənclərin iştirakı ilə videoçəkilişlər aparılmışdır.

Bu videoçarxın təqdimatı 3 iyul 2019-cu il tarixində saat 11-də Şamaxı rayon Heydər Əliyev Mərkəzində rayonda fəaliyyət göstərən media qurumları, mətbuat xidmətlərinin nümayəndələri, idarə və təşkilatlarda çalışan rayonun 50-yə yaxın fəal gənclərinin iştirakı ilə keçirildi. Tədbirdə həmçinin Şamaxı Rayon İcra Hakimiyyətinin məsul işçisi Babaqədir Qədirov, rayon Gənclər və İdman idarəsinin rəisi Şahmar Hüseynov, Qarabağ Veteranları Cəmiyyətinin sədri Fuad Səmiyev də iştirak etmişdir. Tədbiri Şamaxı RİH-i aparatının işçisi Babaqədir Qədirov açıq elan etdikdən sonra, Gənclər və İdman idarəsinin rəisi Şahmar Hüseynov rayonumuzun "Gənclər Paytaxtı" seçilməsi ilə bağlı görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışdı. Sonra isə dəyirmi masa arxasındakı iştirakçı gənclər arasında müzakirələr aparılmış, təkliflər irəli sürülmüş və problemlərin həlli istiqamətində görüləcək işlər müəyyənləşdirilmişdir. Müzakirələr bitdikdən sonra "Şamaxı Gənclər Paytaxtı-2019" seçilməsi ilə əlaqədar Simvolik açarın rayonumuza təqdim olunması ilə bağlı hazırlanmış videoçarx iştirakçılara təqdim olundu.

**Könül MƏMMƏDOVA**
**"Şirvan"**

# Şamaxıda Beynəlxalq Yoqa Günü qeyd edilib





**Hindistanın Azərbaycandakı səfirliyinin, Şamaxı Rayon İcra Hakimiyyətinin və "Yoga Şahi Studio"nun birgə əməkdaşlığı çərçivəsində Şamaxıdakı "Fortuna" istirahət mərkəzində 5-ci Beynəlxalq Yoqa Gününə həsr olunan tədbir keçirilib.**

Açıq havada təşkil olunan yoqa tədbirində 150 nəfərdən çox tamaşaçı iştirak edib. Təşkil olunan tədbir yoqa həvəskarlarını bu cərəyanın müxtəlif istiqamətləri ilə tanış etmək, onların yoqa haqqında məlumatlılığını artırmaq məqsədi daşıyıb.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov tədbirdə çıxış edərək müasir dövrdə cəmiyyətdə populyarlıq qazanan



yoqanın insan həyatında fiziki və mənəvi sağlamlıq üçün böyük rol oynadığını qeyd edib.

Hindistanın Azərbaycandakı səfiri Bavitlunq tədbirin təşkilindən məmnunluğunu bildirərək, qeyd edib ki, bu cür tədbirlər xalqlar arasında mədəniyyət körpüsü rolunu oynayır. O, yoqa tədbirlərinin keçirilməsinə böyük dəstək verdiyinə görə Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirib.

Seans zamanı "Yoqa Şahi Studiosu"nun təlimçisi Sabina Şahi müxtəlif yoqa hərəkətləri vasitəsilə gündəlik həyatda yaşanan problemlərin yaratdığı gərginliklərdən xilas olmağın yollarını göstərib.

## Mədəniyyətlərarası dialoqun dəstəklənməsində mədəniyyət müəssisələrinin potensialı müzakirə olunub

**Şamaxı şəhər Heydər Əliyev Mərkəzində Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təşkilatçılığı ilə İsmayıllı Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən "Gənc mədəniyyət işçilərinin koordinasiya kreativ qrupu"nun üzvləri ilə regional görüş keçirilib.**

Görüşdə gənc mədəniyyət işçiləri arasında bu günlərdə Bakıda keçirilmiş "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda gənclərə ünvanlanan çağırış və mesajlar barədə fikir mübadiləsi aparılıb.

Tədbirin əsas məqsədi gənc mədəniyyət işçiləri arasında mədəniyyətlərarası dialoq strategiyasının yaradılması zəruriliyinin, mövcud problemlərin və münaqişələrin hərb vasitəsi ilə yox, maliyyə, siyasi və mədəni vasitələrlə həll edilməsi barədə təsəvvürlərin formalaşdırılmasıdır.

Mərkəzin direktoru Asif Usubəliyev öz çıxışında tolerant və multikultural ölkədə yaşamanın müsbət tərəflərindən, birgəyaşayış, bir-birinə hörmətlə yanaşma, müxtəlif mədəniyyətləri və dinləri qəbul etmənin vacibliyindən danışıb. Bununla yanaşı, mədəni dəyərlərin məhv edilməsi, oğurlanması və mənimsənilməsinin qarşısının alınması məsələsinə də xüsusi önəm verilib.

Elmi katib Cavid Əliyev "Azərbaycanın ədəbi irsində multikulturalizm izləri" adlı məruzəsində ədəbi irs nümunələrimizdə xalqımıza aid multikultural dəyərlərin əks etdirilməsindən danışıb.

Şöbə müdiri Nurəddin Babazadə bir daha vurğulayıb ki, mədəniyyətlərarası problemlərin və münaqişələrin həlli ancaq qarşılıqlı anlaşma və dialoq vasitəsilə həyata keçirilməlidir.

Mərkəzin əməkdaşları Aygün Balabəyova məruzəsində əsası "Bakı Prosesi" ilə qoyulan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun tarixindən, ümumi missiyasından, Ceyhun Əhmədov isə Forumda gənclərə ünvanlanan mesajlardan və mədəniyyətlərarası dialoqun əhəmiyyətindən danışıblar.

Görüş zamanı gənclər arasında geniş fikir mübadiləsi aparılıb.

## Şamaxıda kənd təsərrüfatı məhsulları istehsalı 20 faiz artmışdır

Şamaxı rayonunun iqtisadiyyatında əsas yeri kənd təsərrüfatı tutur. Rayonda taxılçılıq, heyvandarlıq və üzümçülüyün ildən-ilə daha da inkişaf etdirilməsi istiqamətində aparılan məqsədyönlü işlərlə yanaşı, əhalinin ərzaq təhlükəsizliyinə, eləcə də, işsizlik probleminin həllinə də xüsusi diqqət yetirilir. İri aqroparkların yaradılması kənd təsərrüfatının inkişafında əhəmiyyətli rol oynayır.

Sözsüz ki, kənd təsərrüfatı sahəsində aparılan islahatlar daha böyük nəticələr qazanmağa imkan verəcək. Son illər alınan çox sayda müasir kənd təsərrüfatı texnikası da məhsuldarlığın artmasında əhəmiyyətli rol oynayır. Beləliklə, kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafını təmin etmək, sistemli şəkildə, torpaqların münbitliyini nəzərə almaqla əkin sahələrinin səmərəliliyini təmin etməyə etibarlı zəmin yaranır.

2018-ci ildə Şamaxı rayonunda kənd təsərrüfatı məhsulları istehsalının artımı bu sahədə aparılan səmərəli işin nəticəsidir. Fikrimizi bir qədər də konkretləşdirsək,- ötən il rayonumuzda kənd təsərrüfatı istehsalı əvvəlki ilə nisbətən 11 milyon 682 min manat və ya 20,2 faiz artmışdır. Başqa sözlə, 69 milyon 455 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bunun 40 milyon 41 min manatı bitkiçilik, 29 milyon 414 min manatı isə heyvandarlıq məhsullarıdır.

Rayonda taxılçılıq təsərrüfatının inkişafı qarşıya qoyulan mühüm məsələlər sırasındadır. Mütəxəssislər bu fikirdədir ki, taxıl istehsalının artırılmasının əsas yolları fermerlərin tələbatına uyğun qısa rotasiyalı əkin dövriyyələrinin, torpaq becərmələrinin və gübrə verilməsinin səmərəli üsullarının, optimal səpin müddəti və normalarının, yeni intensiv sortların təsərrüfatlara tətbiqindən, keyfiyyətli toxum materialından istifadə edilməsindən və əkinlərin xəstəlik, ziyanverici və alaqlardan mühafizə olunmasından ibarətdir. Sözsüz ki, bu istiqamətdə əhəmiyyətli tədbirlərdən biri də taxıl səpininin vaxtında və keyfiyyətlə aparılmasıdır. Ona görə Şamaxı taxılçıları ötən ilin payızında əkin kampaniyasına böyük əhəmiyyət verdilər. Onlar illərin təcrübəsindən əmindirlər ki, keyfiyyətli səpinin aparılması sayəsində sağlam və kütləvi cücərtilər alınır.

2019-cu ilin məhsulu üçün 37 min 639,3 hektarda səpin aparılıb. Həmin sahələrin 26 min 148,3 hektarı buğda, qalanı isə arpadır.

Şamaxının zəhmət adamlarının öz işinə doğma münasibəti, məsuliyyəti, işgüzarlığı bu il kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində qazanılan uğurların daha da artacağının müjdəsini indidən verir.

**"Şirvan"**

# 21 iyun tarixində Şamaxı Rayon Təhsil Şöbəsində növbəti Təhsilyanı Şura keçirilib





**Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Babalar Ağayev tədris ilinin yekunu ilə bağlı hesabat məruzəsi ilə çıxış edib.**

Təhsilyanı Şuranın sədri, RTŞ-nin müdiri Namiq Nağıyev möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının təhsilə qayğısı, müəllimlərin əmək haqqının artırılması və təhsil infrastrukturunun yaxşılaşdırılması sahəsində görülən işlərin təhsil ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandığını vurğulayaraq, bütün görülən işlərə görə cənab prezidentə təşəkkürünü bildirdi. O, cari tədris ilində görülən işləri və mövcud olmuş nöqsanları təhlil edərək qarşıda duran vəzifələrlə bağlı konkret tapşırıqlarını verdi. Şuranın sonunda təlim-tərbiyə işində fərqlənən məktəblərə və məktəbdənkənar təhsil müəssisələrinə Fəxri Fərmanlar təqdim edilib.

# 14 iyun tarixində Şamaxı rayonunun bütün ümumtəhsil məktəblərində son zəng tədbirləri keçirilib





Rayon icra hakimiyyəti və Təhsil Şöbəsinin rəhbərliyi əvvəlki illərdə olduğundan fərqli olaraq yalnız şəhər məktəblərində deyil, təhsildə yüksək nəticələr əldə etmiş ucqar kənd məktəblərində də (Qızmeydan, Nağaraxana, Göylər kənd 1 saylı, Göylər kənd 2 saylı tam orta məktəblərində) olub, şagird, müəllim və valideynləri təbrik ediblər.

### SON ZƏNG

Düz on bir il qabaq adi ev idi,
Sən bu gün Müqəddəs bildiyin məktəb!
Atanın-ananın əlindən tutub,
Ağlaya-ağlaya gəldiyin məktəb!
Öz doğma dilindən, Ana dilindən
Sənə heca-heca söz quran oldu.

Min bir zəhmət ilə tutub əlindən,
İlk "Ana" sözünü yazdıran oldu.
Dəcəlik eyləyib, oynayıb-gülüb,
Dərsdən icazəsiz qaçan da oldu.
Sinif yoldaşını doğması dilib,
Açılmaz sirrini açan da oldu.
Hamıya əzizdir məktəb illəri,

Ömrün zirvəsində, başqa görünür.
Bu gün düşündükcə ötən günləri,
Nəmli gözünüzdə yaşda görünür.
Ələ qəmli-qəmli alınan bu zəng,
Sazda "Kərəmi"niz, "Cəngi"niz olsun!
Məktəbdə sonuncu çalınan bu zəng,
Həyata çağırış zənginiz olsun!

## TƏHSİL XƏBƏRLƏRİ

### Şamaxı rayonu üzrə 3 layihə qalib olub

**Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqənin qalibləri bəlli olub.**

Belə ki, Şamaxı Rayon Təhsil Şöbəsinin tabeliyindəki təhsil müəssisələrindən şəhər 2 və 10 saylı tam orta məktəblərə məxsus layihələr Ümumi təhsil müəssisələri kateqoriyası üzrə qaliblər sırasındadır.

Şamaxı Rayon Təhsil Şöbəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində çalışan müəllimlər tərəfindən 1 layihə isə fərdi kateqoriya üzrə qalib gəlib.

Ümumtəhsil təhsil kateqoriyası çərçivəsində şəhər 2 saylı tam orta məktəbi "Riyaziyyat fənni üzrə istedadlı uşaqlarla işin təşkili" və şəhər 10 saylı tam orta məktəbi isə "Müəllimlərin STEM tədrisi bacarıqlarının təkmilləşdirilməsi" layihəsi üzrə, fərdi kateqoriya çərçivəsində isə şəhər 10 saylı tam orta məktəbin informatika müəllimi Qəribova Şəhla Heybət qızı "Təhsilin inkişafında istedadlı şagirdlər" layihəsi üzrə qalib olubdur.

Qeyd edək ki, təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqənin keçirilməsinin əsas məqsədi təhsil müəssisələri, eləcə də təhsilverənlər arasında sağlam rəqabəti və innovativ fəaliyyəti stimullaşdırmaqdan ibarətdir.

### Dövlət İmtahan Mərkəzi tərəfindən Şamaxı Rayon Təhsil Şöbəsində tədbir keçrilib

Dövlət İmtahan Mərkəzi tərəfindən regionlarda ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlərə kömək məqsədilə ödənişsiz əsaslarla "Abituriyent Məsləhət Mərkəzləri" fəaliyyət göstərir. Növbəti belə "Abituriyent Məsləhət Mərkəzi" 31 may saat 10:00-dan 17:00-dək Şamaxı Rayon Təhsil Şöbəsində fəaliyyət göstəribdir. Məsləhət mərkəzində DİM-nin Göyçay Regional Bölməsinin müdiri Elnur Qədirov abituriyentlərə tələbə qəbulu qaydaları, ali və orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu, abituriyentin elektron ərizəsinin doldurulma və təsdiq edilməsi qaydası və bu zaman qarşıya çıxa biləcək texniki problemlərin həlli, müsabiqə şərtləri, ixtisas seçimi zamanı diqqət yetirilməli olan məsələlər və abituriyentləri maraqlandıran digər problemlər haqqında ödənişsiz köməklik göstərilib.

***

Şamaxı rayon ümumtəhsil məktəblərinin müəllimləri arasında "Voleybol" idman növü üzrə rayon birinciliyi keçirilib. Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən yarışda I yerə şəhər 9 saylı tam orta məktəb, II yerə Dəmirçi kənd tam orta məktəbi, III yerə Qızmeydan kənd tam orta məktəbinin komandaları layiq görülüblər.

Qalib komandaların üzvlərinə Şamaxı Rayon Təhsil Şöbəsinin "Fəxri Fərmanı" və ATİAHİ-nın Şamaxı Rayon Komitəsinin "Fəxri Fərmanı" və pul mükafatı çalışdıqları məktəblərdə təqdim edilib.

**Könül MƏMMƏDOVA**
**"Şirvan"**

# Avstriyalı tanınmış bərpaçı memar Gülüstan qalasının 3D qrafik modelini hazırlayır

### *Layihə qalanın bərpası istiqamətində görüləcək işlərin müəyyən olunmasına imkan yaradacaq*

**Heydər Əliyev Fondunun dəstəyi ilə Avstriyalı tanınmış bərpaçı memar Erix Pummer Şamaxı rayonunda Şirvanşahların əzəmətli yadigarı Gülüstan qalasının "3D scanning" layihəsi üzrə proseslərə start verib.**

Layihə əsasında qalanın 3D qrafik modelinin hazırlanması üçün xüsusi texniki və lazer qurğularla tarixi abidənin yerin altında və üzərində olan qalıqlarının kompleks çəkilişi edilir. Bu proses Gülüstan qalasının 3D qrafik modeli əsasında real maketinin hazırlanmasına və son nəticədə də qalanın bərpası istiqamətində görüləcək işlərin müəyyən olunmasına imkan yaradacaq.

Avstriyalı məşhur bərpaçı-mütəxəssis, dünyanın müxtəlif yerlərində 400-dən çox abidəni bərpa etmiş Erix Pummerin iştirakı ilə bu günədək ölkəmizdə "Qız qalası"nda, "Şirvanşahlar sarayı"nda, İçərişəhərdəki tarixi "Bəylər" məscidində, "Məhəmməd" məscidində və digər abidələrdə bərpa və konservasiya işləri aparılıb.



Gülüstan qalasında 3 müxtəlif istiqamətdə araşdırma apardığını bildirən bərpaçı-mütəxəssis deyib: "Birinci istiqamətə lazer skanninq daxildir. Lazer qalada müxtəlif istiqamətlərdə hərəkət edərək skanninq işlərini görür. Bundan başqa, özümüz abidənin və onun daxilinin yüzlərlə fotosunu çəkmişik. Dronlarla da qalanın yuxarıdan fotoları çəkilir. Saatlarla dronlar abidənin üzərində uçur və fotolar çəkir. Daha sonra bu 3 fərqli araşdırmanın nəticəsi birlikdə tədqiq olunacaq və qalanın yenidənqurma modelini müəyyənləşdirəcəyik. Tədqiqatlarımızı Avstriyaya aparacağıq. Orada 2 aylıq araşdırmadan sonra yekun nəticəni təqdim edəcəyik".

Qeyd edək ki, əsası VI əsrin əvvəllərində qoyulan Şirvanşahlar dövlətinə məxsus Gülüstan qalası Şamaxı şəhərindən 3 kilometr şimal-qərbdə, Böyük Xınıslı kəndindən 200 metr yüksəklikdə uca dağ zirvəsində yerləşir. Əlçatmaz yerdə tikilən qala öz möhtəşəmliyi və memarlıq üslubuna görə unikal bir abidədir. Şirvan-Abşeron memarlığı formasında inşa edilən qala divarları və bürclər yonulmuş əhəng daşından gəc məhlulu ilə tikilib. Qalaya çıxışın mümkün olduğu bütün yerlər keçilməz qala divarları ilə kəsilib.

Gülüstan əsrlər boyu Şirvan hökmdarlarının iqamətgahı olub. Gülüstan qalası əsrlər boyu düşmən hücumlarına mərdliklə sinə gərib. Amma müharibələr və dağıdıcı zəlzələlər bu yerdən də izsiz ötüşməyib. Lakin buna baxmayaraq, qalanın iki bürcü və qala divarlarının bir hissəsi dövrümüzədək gəlib çatıb.

# Kəskin istilərin müşahidə olunduğu dövrlərdə şəhərin içməli su təminatında dayanıqlıq təmin olunacaq

### *Şamaxı şəhərinin sabit və etibarlı su təchizatı üçün yeni mənbənin yaradılmasına başlanılıb*



Dövlət büdcəsi hesabına icra olunan layihə çərçivəsində Ağsuçayın məcrasında 1734 metr uzunluğunda drenaj tipli suqəbuledici qurğu inşa edilir. Yeni yaradılan mənbədən şəhərə saniyədə 80-100 litr suyun verilməsi nəzərdə tutulur. Su mənbəyində hər birinin tutumu 500 kubmetr olan 2 ədəd su anbarı, 1 ədəd su nasos stansiyası inşa edilib. Yeni su mənbəyindən Şamaxı şəhərinə içməli suyun verilməsi məqsədilə 19 kilometrlik magistral su kəməri tikilib. Şəhərin dayanıqlı su təminatı məqsədilə ümumi tutumu 5000 kubmetr olan 4 yeni su anbarı da inşa olunub. Hazırda sugötürücü qurğuda tikinti işləri davam etdirilir. Mənbə istismara verildikdən sonra magistral kəmərlə Şamaxı şəhərinə içməli suyun verilməsinə başlanılacaq. Bununla da kəskin istilərin müşahidə olunduğu dövrlərdə şəhərin içməli su təminatında dayanıqlıq təmin olunacaq.

# Şamaxı rayonunda taxıl biçini kampaniyası sürətlə davam etdirilir və artıq 24 min 326 hektar sahənin məhsulu yığılıb



Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən "Şirvan"a bildirilib ki, cari ilin məhsulu üçün 41 min 79,3 hektar sahədə taxıl yetişdirilib. Zəmilərin 29 min 588,3 hektarı buğda, 11 min 491 hektarı arpadır. Hazırda bütün qüvvələr bu mühüm strateji məhsulun tez və itkisiz yığılmasına səfərbər edilib. Hər gün sahələrə 40-dan çox kombayn çıxarılır. İndiyədək biçilən sahələrdən 31 min 71,6 ton buğda, 18 min 107 ton arpa götürülüb. Məhsuldarlıq ötən ildəkindən çoxdur. Rayonun bir sıra iri taxılçılıq zonalarında, o cümlədən Sabir, Şəhriyar qəsəbə, Çarhan, Məlikçobanlı, Həmyə ərazi dairələrində məhsuldarlıq daha yüksəkdir.

# Vergi ombudsmanı vergi ödəyicilərinin hüquqlarını müdafiə edəcək




***Mayın 3-də Vergilər Nazirliyində kütləvi informasiya vasitələri üçün brifinq keçirilib. Brifinqdə Vergilər nazirinin müşaviri Elçin Məmmədov mövcud beynəlxalq təcrübəyə əsaslanmaqla Azərbaycanda Vergi Ombudsmanı İnstitutunun yaradılması və fəaliyyətə başlaması barədə məlumat verib. Bildirilib ki, vergi ödəyicilərinin hüquqlarının daha etibarlı qorunmasını təmin etmək məqsədilə Vergilər nazirinin əmri ilə Vergilər Nazirliyində Vergi Ombudsmanı İnstitutu yaradılıb. Bu institut vergi ödəyicilərinin müraciətlərinin məhkəmə müstəvisinə çıxmadan çevik həllinə nail olacaq və vergi orqanları ilə münasibətlərin qarşılıqlı əməkdaşlıq formasında tənzimlənməsinə kömək göstərəcək.***

Qeyd olunub ki, Vergilər nazirinin növbəti əmri ilə bu günlərdə vergi ombudsmanının fəaliyyət istiqamətlərini, hüquq və vəzifələrini müəyyən edən "Vergi ombudsmanı haqqında Əsasnamə" təsdiq edilib. Həmin əmrlə Vergilər nazirinin müşaviri Elçin Məmmədov vergi ombudsmanı təyin edilib. Bildirilib ki, apelyasiya kommunikasiyalarının çoxluğu sahibkarın müraciətlərinə və şikayətlərinə ədalətli baxılması imkanlarını artırır. Vergi Ombudsmanı İnstitutunun yaradılması ilə vergi ödəyiciləri ilə üfüqi əməkdaşlıq platforması genişləndirilib və vergi ödəyiciləri yeni bir apelyasiya mexanizmi əldə ediblər.

E.Məmmədov qeyd edib ki, Vergilər Nazirliyinin əsas məqsədi vergi ödəyicilərinin baxılmamış, ədalətli araşdırmaya cəlb edilməmiş hər hansı müraciətinin qalmamasıdır. Ombudsman bu işdə onlara yardım edəcək, hüquqi müdafiəsini təmin edəcək, müraciətlərə ədalətli baxılması mövqeyindən çıxış edəcəkdir. Bu, həmçinin, vergi əməkdaşlarının qəbul etdikləri qərarlara görə məsuliyyət daşımasına da böyük təsir göstərəcəkdir.

Brifinqdə vergi ombudsmanının hüquq və vəzifələri, fəaliyyət istiqamətləri haqqında da məlumat verilib. Bildirilib ki, o, Vergilər nazirinin əmri ilə təyin edilən, bilavasitə nazirə tabe olan və ona hesabat verən şəxsdir. Ombudsmanın əsas fəaliyyət istiqaməti vergi ödəyicilərinin hüquqlarının pozulmasının qarşısının alınması və pozulmuş hüquqların bərpasıdır.

## Hüquqi şəxslərin dövlət qeydiyyatı cəmi bir prosedurla 20 dəqiqə ərzində həyata keçirilir

**Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) Vergilər Nazirliyinin nümayəndələrinin iştirakı ilə hüquqi şəxslərin dövlət qeydiyyatı prosedurunun mahiyyəti və üstünlüklərinə həsr edilmiş mətbuat konfransı keçirilib.**

İİTKM-in analitiki Nərmin Kazımlı KPMG, PwC, EY, Ekvita, Dentons kimi iri konsaltinq şirkətlərinin də iştirak etdiyi konfransda bildirib ki, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiyanın "Biznesə başlama, vergi və hesabatlılıq" adlı işçi qrup ilə yanaşı, digər işçi qrupların nümayəndələrinin də iştirakı ilə silsilə mətbuat konfranslarının keçirilməsi nəzərdə tutulub. Mətbuat konfranslarında kompleks biznes islahatlarının icrası istiqamətində görülən işlər və son statistik göstəricilər barədə məlumat veriləcək.

Vergilər Nazirliyinin Dövlət qeydiyyatı və uçota nəzarət departamentinin baş direktoru Ələkbər Məmmədov yeni onlayn qeydiyyat sistemi barədə KİV nümayəndələrinə məlumat verib. Bildirilib ki, bu islahatlar nəticəsində hüquqi şəxslərin cəmi bir prosedurla onlayn dövlət qeydiyyatına alınması üçün əlverişli şərait yaradılıb. Yeni onlayn qeydiyyat sisteminin həyata keçirilməsində əsas məqsəd biznesə başlama prosedurlarının sadələşdirilməsi, vaxta qənaət, əlverişli biznes mühiti, şəffaflığın təmin olunması, məmur-sahibkar ünsiyyətinin minimuma endirilməsi və vətəndaş məmnunluğunun artırılmasıdır. Xüsusilə qeyd olunub ki, yeni qeydiyyat sisteminə əsasən, qeydiyyat sənədləri yalnız vergi ödəyicisinin elektron kabinetinə onlayn qaydada göndərilir və bu sənədlərin kağız daşıyıcılarda götürülməsinə zərurət olmur. Elektron kabinetə göndərilmiş qeydiyyat sənədləri xüsusi barkodla şifrələnməklə onların rəsmi olaraq bütün dövlət qurumları, banklar, notariuslar və digər təşkilatlarda qəbul edilməsi üçün qanunvericilik bazası və inzibatçılıq da təkmilləşdirilib. Bu xidmətdən istifadə edənlərə yardım məqsədilə İnternet Vergi İdarəsində "Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin e-qeydiyyatı" (elektron imza olmadan) təlimatı yerləşdirilib.

Yeni onlayn qeydiyyat sisteminin həyata keçirilməsində əsas məqsəd biznesə başlama prosedurlarının sadələşdirilməsi, vaxta qənaət, əlverişli biznes mühiti, şəffaflığın təmin olunması, məmur-sahibkar ünsiyyətinin minimuma endirilməsi və vətəndaş məmnunluğunun artırılmasıdır

Bildirilib ki, yeni xidmətdən yararlanmaq istəyən istifadəçilər elektron imza olmadan İnternet Vergi İdarəsinə daxil olaraq elektron qeydiyyat sistemində FIN kodla indentifikasiyadan keçirlər. Qeydiyyat ərizəsinin məlumatları sistemə onlayn qaydada daxil edilir və bir prosedurla sənədlər təsdiqlənməklə VÖEN verilməsi prosesi yekunlaşır. Həmin prosedur çərçivəsində avtomatik olaraq əmək müqaviləsi bildirişləri məlumatlarının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sisteminə göndərilməsi, vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyata alınması, ona bankda hesab açmaq məqsədilə şəhadətnamə-dublikatın verilməsi təmin edilir. Statistik rəqəmləri diqqətə çatdıran Ə.Məmmədovun sözlərinə görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 1-ci rübündə qeydiyyata alınmış hüquqi şəxslərin sayı 8,1 faiz, fiziki şəxslərin sayı 28,5 faiz, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron qeydiyyatı 11,3 faiz artıb. Cari ilin mart ayında yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron qeydiyyatının xüsusi çəkisi 87,8 faiz təşkil edib.

Qeydiyyatın həyata keçirilməsi üçün e-ərizənin elektron imza ilə təsdiq edilməsi zərurəti aradan qaldırılıb, eləcə də qeydiyyatla bağlı əvvəllər mövcud olan bütün prosedurlar ləğv olunub

Xatırladaq ki, cari ilin əvvəlindən başlayaraq dövlət qeydiyyatının aparılmasının (ƏDV qeydiyyatı və bank hesabının açılması da daxil olmaqla) bir prosedurla tamamlanması mümkündür. Qeydiyyatın həyata keçirilməsi üçün e-ərizənin elektron imza ilə təsdiq edilməsi zərurəti aradan qaldırılıb, eləcə də qeydiyyatla bağlı əvvəllər mövcud olan bütün prosedurlar ləğv olunub. Nəticədə hüquqi şəxsin qeydiyyatı prosedurlarının sayı 3-dən 1-ə, müddəti isə 20 dəqiqəyədək azaldılıb, biznesə başlamaq üçün maliyyə vəsaiti və sənəd sayı sıfıra endirilib.

Bütün bunlar vergi qanunvericiliyində sahibkarlığın dəstəklənməsi ilə bağlı aparılan dəyişikliklərin davamıdır və ölkədə biznes mühitinin əlverişliliyinin daha da yaxşılaşdırılmasına xidmət edir. Aparılan islahatlar ölkəmizin "Doing Business" hesabatında mövqelərinə də müsbət təsir edəcəkdir. Hazırda "Doing Business 2019" hesabatında Azərbaycan "Biznesə başlama" indikatoru üzrə 190 ölkə arasında 9-cu yerdədir.

Konfransda KİV nümayəndələrinin suallaları cavablandırılı.

**Fotolar Kamran Təhməzovundur**

Baş redaktor
Könül
MƏMMƏDOVA

Ünvan: Şamaxı şəhəri,
H. Əliyev küçəsi, 21.
İndeks: AZ5600
Telefon: 265-70-44

Qəzetin indeksi:
66910.
Sifariş: .
Tiraj: 1000.

Şəhadətnamə: 555
E-mail: shirvanqezeti@inbox.ru
shirvanqazeti.az

"Azərbaycan" nəşriyyatında
çap olunmuşdur.
Çapa imzalanmışdır:
30.06.2019.